

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 59 (21.211)

24 mart 2015-ci il, çərşənbə axşamı

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan şəhərində Novruz bayramı tədbirləri davam edir













Novruz bayramı günlərində Naxçıvan şəhərinin Əcəmi seyrəngahında geniş bir ərazidə ictimai iaşə xidməti təşkil olunmuşdur. Vətənimizi, baharın gəlişini tərənnüm edən mahnılar seyrəngaha gələnlərdə xoş ovqat yaradırdı.

Martın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan şəhərinin Əcəmi seyrəngahına gəlmiş, bayram tədbirlərinin təşkili ilə maraqlanmışdır.

Seyrəngahdakı ictimai iaşə xidmətində muxtar respublikada fəaliyyət göstərən 40-a yaxın yerli istehsal müəssisəsi öz məhsullarının satış və sərgisini təşkil etmişdi.

Qədim Naxçıvan həm də müalicəvi suları ilə tanınır. Bu gün muxtar respublikada istehsal olunan mineral sular Azərbaycanda və bir çox xarici ölkələrdə alıcılar tərəfindən rəğbətlə qarşılanır. "Sirab", "Badamlı" və "Çınqıllı" mineral sularının sərgiləndiyi guşələr tədbir iştirakçılarının marağına səbəb olmuşdur. "Farma-Şah" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün ayrılmış pavilyonda isə Şahbuz dağlarından toplanaraq qablaşdırılan şəfalı bitki çayları nümayiş olunurdu.

Tədbirdə Naxçıvanın zəngin mətbəx nümunələri nümayiş etdirilirdi. Burada Naxçıvan mətbəxinə xas olan müxtəlif növ yeməklər, kabab və çörək növləri, şərbətlər, qənnadı məmulatları, xüsusilə Novruz bayramının rəmzi olan şirniyyatlar tədbir iştirakçılarına təklif olunurdu. Xüsusilə də muxtar respublikanın ayrı-ayrı bölgələrinə xas olan milli yeməklər və şirniyyat növləri öz dadı-tamı ilə seçilirdi.

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin emalatxanalarında hazırlanan əl işlərinə və "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətində hazırlanan dekorativ tətbiqi sənət nümunələrinə baxmışdır. Qeyd olunmuşdur ki, muxtar respublikada qeyri-maddi mədəni irsimizin qorunması istiqamətində mühüm addımlar atılır. Qədim sənətkarlıq sahələrinin dəstəklənməsi, sənətkarlar üçün emalatxanaların yaradılması və əl işlərinin satış-sərgisinin təşkil olunması da məhz bu məqsədə xidmət edir. Bayram günlərində xalq yaradıcılığı emalatxanaları təşkil olunur, papaqçılıq, dulusçuluq, xalçaçılıq, oyma, tikmə, toxuculuq nümunələri və müxtəlif əl işləri sərgilənir, qədim sənət nümunələri gənc nəslə aşılanır və geniş ictimaiyyətə çatdırılır.

Milli dəyərlərimizin ən mühüm elementlərindən biri də milli geyimlərimizdir. Naxçıvan ərazisində müxtəlif dövrlərdə istifadə olunmuş milli geyim nümunələri bu gün lazımi səviyyədə öyrənilir, bərpa və təbliğ olunur. Tədbirdə müxtəlif el mərasimlərində istifadə olunan əşyaların, milli ornamentlərlə bəzədilən hədiyyələrin, milli geyim nümunələrinin yer alması Əcəmi seyrəngahında bayram gəzintisinə çıxanların diqqətini cəlb etmişdir. Gənc oğlan və qızlar naxışlı, butalı, zər-zibalı müxtəlif milli geyimlərimizi nümayiş etdirmişlər.

Ali Məclisin Sədri milli geyimli oğlan və qızlarla xatirə şəkli çəkdirmişdir.

Qədim dövrlərdən bəri papaq milli geyimlərimizin ayrılmaz atributudur. Yüz illər boyu xalqın məişət mədəniyyəti ilə sıx əlaqədə inkişaf edən papaqçılıq sənəti günümüzdə də yaşadılır. Muxtar respublikada papaqçılıqla məşğul olan sənətkarların tikdikləri müxtəlif növ papaqlardan məişətdə geniş istifadə olunur. Sərgidə nümayiş etdirilən qədim papaq növləri maraqla qarşılanmışdır.

Naxçıvanda xalçaçılıq sənəti günümüzdə də yaşadılır, toxuculuq kursları təşkil olunur, bu qədim sənət növünün incəlikləri gənc qızlara aşılanır. Tədbirdə Naxçıvan xalçalarının, bədii tikmə və parça nümunələrinin nümayişi ilə yanaşı, hana qurulmuş, yun əyirilmiş, milli geyimli qızlar tərəfindən ilmələr salınmışdır.

Muxtar respublikada xalq sənətkarlıq sahələrindən olan dulusçuluq da inkişaf etdirilir. Bu peşə ilə məşğul olan sənətkarlarımız bu gün də gözəl saxsı qablar hazırlayır, qədim dulusçuluq sənətinin yaşadılmasına öz töhfələrini verirlər. Tədbirdə dulusçuluq emalatxanası təşkil olunmuş, sadə və naxışlı saxsı qablar nümayiş etdirilmişdir.

İctimai iaşə xidməti ilə tanışlıqdan sonra Ali Məclisin Sədri "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində olmuş, Azərbaycanın milli dövlətçilik tarixində xüsusi yer tutan Naxçıvan xanlığının tarixinin öyrənilməsi və təbliğinin vacibliyini vurğulamış, muzeyin Naxçıvan xanlığına aid materiallarla zənginləşdirilməsi barədə tapşırıqlar vermişdir.

Ali Məclisin Sədri hədiyyələr mağazası və qədim musiqi alətlərinin hazırlanması ilə də tanış olmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Muxtar respublika ərazisindəki hərbi hissələrdə bayram tədbirləri keçirilib

*Əlahiddə Ümumqoşun Ordusunun birləşmə və hərbi hissələrində Novruz bayramı münasibətilə bayram tədbirləri keçirilib, muxtar respublikanın mədəniyyət və incəsənət kollektivləri musiqi proqramları ilə çıxış edib, əsgərlərimizə sovqatlar təqdim olunub.*

Bayramlar, tarixi günlər ərəfəsində əsgər oğullarımızın görüşünə getmək artıq bir ənənəyə çevrilib. Novruz bayramı günlərində də əsgərlərimiz unudulmayıb. Şərur, Kəngərli, Babək, Culfa, Ordubad, Şahbuz Rayon Mədəniyyət və Turizm şöbələrinin, eləcə də Naxçıvan Dövlət Filarmoniyası, Naxçıvan Dövlət Kukla Teatrı, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Naxçıvan Musiqi Kollecinin kollektivləri hərbi hissələrdə olub, əsgərlər qarşısında konsert proqramları ilə çıxış ediblər.

Mədəniyyət kollektivlərinin çıxışları əsgər və zabitlərdə xoş ovqat yaradıb.

Tədbirlərdə bayram münasibətilə xidmətdə fərqlənən hərbçilər mükafatlandırılıb.

Gətirilmiş bayram sovqatları hərbi hissələrə təqdim edilib və bütün hərbi hissələrdə əsgər və zabitlər üçün bayram süfrələri açılıb.

* * *

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyi Şərur rayonunun ən ucqar ərazisində yerləşən "N" hərbi hissədə Novruz şənliyi keçirib.

Bayram tədbirində zabit Qurban Hüseynov qeyd edib ki, Novruz ümumxalq bayramı kimi uzun əsrlərdən bəri yurdumuzun hər bir guşəsində müxtəlif el şənlikləri və mərasimlərlə qarşılanıb. Bu gün "N" hərbi hissədə təşkil olunan bayram tədbiri hər bir əsgər və zabitdə sevinc və fərəh hissi doğurur. Bu, bir daha onu göstərir ki, xalqla ordu həmrəydir və bu həmrəylik əsgər və zabitlərin mənəvi ruhunu daha da yüksəldir.

Qurban Hüseynov Daxili İşlər Nazirliyinin kollektivinə bayram şənliyi təşkil etdiyinə görə minnətdarlığını bildirib.

Daxili İşlər Nazirliyinin əməkdaşı, polis baş leytenantı Nazlı Quliyeva əsgər və zabitləri Novruz bayramı münasibətilə təbrik edib, onlara Vətənin keşiyində dayanmaq kimi şərəfli işlərində uğurlar arzulayıb.

Sonra Şərur Rayon Mədəniyyət və Turizm Şöbəsinin "Arpaçay" instrumental ansamblının konserti olub.

Şənlikdə bayram tonqalı yandırılıb, "Şərur" xalq yallı ansamblının çıxışı tədbir iştirakçılarında xoş ovqat yaradıb.

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, polis general-leytenantı Əhməd Əhmədov, Əlahiddə Ümumqoşun Ordusunun zabiti, general-mayor Vasif Kazımov və digər qonaqlar əsgərlərin sosial-məişət şəraiti ilə tanış olublar.

**Xəbərlər şöbəsi**

## Yeni nailiyyətlərə doğru

*Bu gün respublikamızın ümumtəhsil sistemində əsaslı islahatlar aparılır. Ulu öndər Heydər Əliyev ölkəmizin tərəqqisində təhsilin rolunu yüksək qiymətləndirərək bu sahədə əsaslı islahatların keçirilməsinin ilk təşəbbüskarı olub, irəli sürdüyü müddəalarla Azərbaycan təhsilinin inkişaf istiqamətlərini müəyyənləşdirib.*

"Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" müstəsna əhəmiyyətə malik tarixi sənəd kimi müasir dövrdə ölkəmizin ümumi təhsil sahəsində dövlət siyasətinin konseptual prinsiplərini və strategiyasını formalaşdırıb. Dövlətin təhsillə bağlı siyasəti, cəmiyyətin ehtiyac və tələbatı, təhsil alanın maraqları nəzərə alınaraq təhsilin məzmunu yenidən qurulur, yeni qiymətləndirmə sistemi tətbiq olunur. Müasir pedaqoji yanaşmalar əsasında aparılan və elmi-nəzəri əsaslara söykənən bu prosesin təməli 1999-cu ildə islahat proqramının qəbul edilməsi ilə qoyulub. Məqsəd Azərbaycanda milli zəminə, bəşəri dəyərlərə söykənən, differensiallaşdırma, fərdləşdirmə və inteqrasiya kimi prinsiplərə üstünlük verən, təhsil alanın bu prosesin əsas subyektinə çevrilməsini özünə əsas vəzifə hesab edən yeni təhsil sisteminin yaradılmasıdır.

Tələbyönümlülük, nəticəyönümlülük, şagirdyönümlülük, şəxsiyyətyönümlülük, inteqrativlik təhsilin müasir məzmununun didaktik əsasını təşkil edir və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli Qərarı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında ümumi təhsilin konsepsiyası (Milli Kurikulumu)" bilavasitə həmin prinsipləri özündə əks etdirir.

2009-cu ildə "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib və 3 iyun 2010-cu ildə "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)" təsdiq edilib.

Bu gün inkişaf etmiş bir sıra ölkələrdə, o cümlədən Avropa məkanında orta məktəb məzunları üçün müəyyənləşdirilən bir sıra əsas bacarıq növləri mövcuddur ki, məktəb, ilk növbədə, onların təmin edilməsində birbaşa cavabdehlik daşıyır. Təhlil və tətbiq etmək, müstəqil qərarlar qəbul etmək, ideyalar irəli sürmək və qoyulan məsələlərə yaradıcı, tənqidi münasibət bəsləmək, icraçılıq, təşkilatçılıq və idarəetmə qabiliyyəti, ünsiyyət mədəniyyəti, tolerantlıq nümayiş etdirmək, müasir texnika və kommunikasiya vasitələri ilə davranmaq, əməkdaşlıq etmək və sair bu kimi keyfiyyətlər şəxsiyyəti şərtləndirən ən vacib bacarıq növləri hesab olunur. Tədris edilən hər bir fənn bu bacarıqların şagirdlərə aşılanması işinə öz töhfəsini verməlidir. Məzmunla bağlı məsələlərə yeni yanaşma həm də onunla şərtlənir ki, bilik vermək hələ son hədd deyil. Bilik o zaman zəruri əhəmiyyət kəsb edir ki, şagird qazandığı biliklər vasitəsilə bacarıq və vərdişlərə yiyələnə bilir, onda bu bilikləri tətbiqetmə keyfiyyətləri formalaşır. Məlum məsələdir ki, məktəb illərində əxz olunan biliklər şagirdlərin köməyinə gəlmirsə, onların heç bir əhəmiyyəti yoxdur.

Milli kurikulumda ümumi təhsilin məqsədi sənədin birinci bölməsində ümumi təhsilə və ümumi ortatəhsilli şəxsə verilən tələblər şəklində ifadə olunub: ümumi ortatəhsilli şəxs ana dilini dərindən bilən, Vətəninin tarixi və mədəniyyəti haqda ətraflı məlumatlara malik olan, incəsənəti, ədəbiyyatı, elmi nailiyyətləri, insan əməyini, vətəndaşların hüquq və azadlıqlarını dəyərləndirməyi bacaran, demokratik prinsiplərə hörmətlə yanaşan, dövlətçiliyə və dövlət mənafeyinə sadiqlik nümayiş etdirən, müasir texnika və kommunikasiya vasitələrindən səriştə ilə istifadə edən, insanlara, milli adət-ənənələrə, təbiətə, əxlaqi-mənəvi dəyərlərə tolerant, həssas və ədalətli münasibət bəsləyən, təhsillənməyi və məlumatlanmağı bacaran, həyatda müstəqil yaşayıb fəaliyyət göstərə bilən, inkişaf edən, sağlam həyat tərzi qurmaq, müstəqil mövqeli olmaq kimi keyfiyyətlərə yiyələnən, cəmiyyətin tələbatına uyğun olan zəruri bilik, bacarıq və vərdişlər qazanan, ana dili ilə yanaşı xarici dillərin birində və ya bir neçəsində ünsiyyət saxlamağı bacaran şəxsdir.

Ümumi orta təhsilin məqsədi bu tələblərə cavab verən şəxsiyyətlər formalaşdırmaqdır.

2008-2009-cu tədris ilində respublika məktəblərinin I siniflərinə yeni fənn kurikulumları tətbiq olunmağa başlandı. Hal-hazırda yeni dərs üsulu və proqramlarla təhsil alan şagirdlər I-VIII siniflərdə oxuyurlar. Yaxın gələcəkdə – 3 ildən sonra yeni fənn kurikulumlarının bəhrəsi artıq özünü göstərəcəkdir.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda ümumtəhsil səviyyəsində şagirdlərin fikri və intellektual inkişafına, zəruri biliklərə yiyələnməsinə, onlarda sağlam həyat tərzinin formalaşmasına, dövlət və cəmiyyət qarşısında hüquq və vəzifələrin müəyyən edilməsinə dair imkanlar müəyyənləşdirilmişdir. Buna uyğun olaraq, müəllimlər dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnməli, təhsil proqramını mənimsəməli, ixtisas və elmi-pedaqoji səviyyələrini yüksəltməlidirlər. Müəllimlərin peşəkarlıq səviyyəsinin artırılmasını, sistemli bilik, bacarıq və vərdişlərin əldə edilməsini, əlavə təlim ehtiyaclarının müəyyənləşdirilməsini təmin etmək məqsədilə "Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi haqqında Əsasnamə"nin 13.4-cü bəndinə əsasən, Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərində çalışan müəllimlərin attestasiyasının keçirilməsinin təşkili pedaqoji kadrların fəaliyyətinin müasir dövrün tələblərinə uyğun stimullaşdırılması məqsədi daşıyır.

Artıq attestasiya imtahanları başa çatıb. İnanırıq ki, muxtar respublikada çalışan müəllimlər metodika, ixtisas fənləri və informatika üzrə tərtib edilmiş test suallarına yüksək səviyyədə hazırlıqları ilə cavab verəcəklər.

**Fəxrəddin BAĞIROV**
*Ordubad rayon Aza kənd tam orta məktəbinin müəllimi*

*Cəmiyyət həyatının hər bir sahəsində əldə olunmuş inkişaf formalaşmış ümumi mədəniyyətdən xəbər verir. Məhz mədəni inkişaf göstəriciləri ilə ictimai həyatın bütün sahələrində, o cümlədən sığorta sahəsində əldə olunmuş müsbət nəticələrdən danışmaq mümkündür. Hər bir vətəndaş həyatını, əmlakını, məsuliyyətini vaxtında sığortalamaqla gözlənilməz bədbəxt hadisələrin vura biləcəyi maddi zərərlərdən təminat almış olur.*

## Maarifləndirici tədbirlər sığortaya inamı artırır

İnsan həyatında elə gözlənilməz hadisələrə rast gəlinir ki, bəzən onların vurduğu maddi zərərlər çox çətinliklə bərpa oluna bilir. Təbii fəlakətlər, texnogen qəzalar, səhlənkarlıqdan yaranan bədbəxt hadisələr və digər gözlənilməz hallar insanların həyatına və əmlakına maddi zərərlər vuraraq çıxılmaz vəziyyət yaradır. Belə hadisələrin vurduğu maddi zərərlərin əvəzinin ödənilməsinə imkan verən etibarlı sığorta sistemi isə sığortalı vətəndaşların düşdüyü çətin maddi vəziyyətlərdən çıxmasında çox əhəmiyyətlidir. Bu baxımdan sığortanın inkişaf edib geniş yayılması üçün ona olan inamın artırılması və insanlarda sığorta vərdişlərinin yaradılmasının böyük rolu vardır. Bu istiqamətdə davamlı olaraq aparılan maarifləndirici tədbirlər, keçirilən görüşlər, müxtəlif çıxış və reklam xarakterli tədbirlər də məhz cəmiyyətdə sığorta mədəniyyətinin formalaşdırılması, insanlara sığortalı yaşamağın üstünlüklərinin çatdırılması məqsədi güdür.

Günümüzdə icbari və könüllü formada onlarla sayda sığorta növləri vardır. İnsanlar bu sığorta növlərindən faydalanmaqla özlərinin can sağlığından tutmuş ev əmlakının sığortasınadək bir çox sahələrdə onların üstünlüklərindən istifadə edirlər. Yeri gəlmişkən, qeyd edək ki, bu gün muxtar respublikamızda 26 növdə sığorta xidmətləri təklif olunmaqdadır. Ancaq müasir dünyada sığortanın geniş yayıldığı bir dövrdə bəzi hallarda sığortaya göstərilən münasibət, yaxud sığortalıların bəzən sığorta müqaviləsində göstərilməyən hadisələrdən sığorta zərərini tələb etməsi sığorta mədəniyyətinin adi tələblərinə belə cavab vermir. Halbuki insanların gözlənilməz bədbəxt hadisələrdən sığortalandıqda qarşılarına qoyduqları məqsəd yalnız sığorta hadisəsi kimi müqavilədə nəzərdə tutulmuş və müvafiq qanunvericilikdə də öz əksini tapmış hadisələrdən dəymiş maddi zərərlərin əvəzinin ödənilməsidir. Bu da, ümumiyyətlə, sığortanın daşıdığı ümumi sosial funksiyanın mahiyyətinə uyğun gələn bir vəzifədir. Belə ki, sığorta hadisəsi baş verdiyi zaman zərərçəkmiş vətəndaşa və ya üçüncü şəxsə ödənilən vəsait həmin şəxsin maddi vəziyyətinin bərpa olunması, eyni zamanda zərərə səbəb olmuş hadisədən sonra onların sosial rifahının yerinə qaytarılması və maddi durumlarının yenidən reabilitasiya olunmasına xidmət edir. Sığortanın bu funksiyaları isə onun faydalarından istifadə edənlərə yaxşı məlumdur.

Sığorta fəaliyyəti öz təşkili formalarına görə icbari və könüllü olaraq iki yerə bölünür. İcbari sığortalar, adından da göründüyü kimi, ictimai əhəmiyyət daşıdığına görə bir sıra sığorta növləri üçün tətbiq olunur. Daşınmaz əmlakın istismarının, avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası kimi sığortalar təkcə buna maraqlı olan şəxslərin deyil, eyni zamanda baş verə biləcək bədbəxt hadisə zamanı zərərçəkən digər vətəndaşların da maraqlarını qorumaqdadır. Sığorta mədəniyyəti baxımından bunun mahiyyətinin başa düşülməsi, ona hər hansı inzibati tədbir olmadan qoşulmaq təkcə insanların özlərinin deyil, həm də ətrafdakı digər şəxslərin də maraqlarına hörmətlə yanaşmaq deməkdir. Bu gün vətəndaşlarımızın bir-birinə daha həssas yanaşması, çətin vəziyyətə düşdükdə bir-birlərinə maddi kömək etməsi kimi çox qiymətli dəyərləri olduğunu nəzərə alsaq, sığortaya münasibətdə də eyni həssaslığın göstərilməsi günümüzün tələbinə çevrilməlidir. Eyni ifadələri könüllü sığortalar üçün də düşünəriksə, görmək olar ki, insanlar həyatda onlar üçün qiymətli olan hər nə varsa, onun qayğısına qalmaqla ən yüksək mədəniyyət nümayiş etdirməyə çalışırlar. Bu isə, şübhəsiz, vətəndaşlarla aparılan işlər, maarifləndirici görüşlər, keçirilən tədbirlərlə mümkün olur. Şübhəsiz, vətəndaşları sığortanın faydalarına inandırmaq üçün hansısa baş verən bədbəxt hadisədən ziyan çəkmiş şəxslərin zərərlərinin ödənilməsi barədə misalların göstərilməsi maarifləndirici faktlar kimi istifadə olunur. Ola bilsin ki, sığortalanan şəxslər çox uzun bir dövrdə heç bir təsadüfi hadisə ilə üzləşməsinlər. Əlbəttə, bunu heç kim arzu etmir. Ancaq nə zamansa ola biləcək gözlənilməz bədbəxt hadisənin vaxtını da kimsə proqnoz edə bilməz.

Sığorta işi öz iqtisadi və sosial məzmununa görə insan həyatının hər sahəsində görünməkdədir. Əhalinin sığortaya cəlb oluna bilinməsi üçün dövlət bütün mümkün vasitə və tədbirlərdən istifadə edir. Bəzi sığorta növləri üzrə, məsələn, kənd təsərrüfatı bitkiləri məhsullarının sığorta haqlarının 50 faizinin dövlət büdcəsi vəsaitləri hesabına ödənilməsi kimi yaradılan şərait vətəndaşların sığortanın müxtəlif növlərindən istifadə etməsi imkanlarını artırır. Bu imkanlardan istifadə etməklə vaxtında sığortalanmaq isə cəmiyyətin inkişafının qarşıya qoyduğu tələb, bütün insanların ümumi mənafeyini qoruyan bir mədəniyyətdir.

**✍ Əli CABBAROV**

## Avtomatlaşdırılmış pensiya təyinatının həyata keçirilməsi davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən vətəndaşlara avtomatlaşdırılmış qaydada pensiya təyinatı davam etdirilir. Ötən il noyabr ayının 1-də yaradılan xidmət vasitəsilə bu günədək 45 nəfərə yaxın şəxsə avtomatlaşdırılmış qaydada əmək pensiyası təyin olunub.*

Qəzetimizə bu barədə məlumatı sözügedən qurumun Pensiya şöbəsinin baş məsləhətçisi Fərzi Seyidov verib. Fond əməkdaşı bildirib ki, muxtar respublika ərazisində yaşayan və pensiya yaşına çatan hər bir şəxs heç bir sənəd toplamadan, vaxt itirmədən fondun Pensiya şöbəsində yaradılmış avtomatlaşdırılmış pensiya təyinatı xidmətinin **550-59-79** telefon nömrəsinə zəng edərək yalnız şəxsiyyət vəsiqəsinin seriya nömrəsini bildirməklə bu xidmətdən istifadə edə bilər. Bu məlumat dərhal Dövlət Sosial Müdafiə Fondunda yaradılmış xüsusi proqram təminatına daxil edilir və həmin göstəricinin sistemdə düzgünlüyü təsdiqləndiyi halda bir neçə dəqiqə ərzində vətəndaşın 1 yanvar 2006-cı il tarixədək olan iş stajı və 1 yanvar 2006-cı il tarixdən sonrakı dövrdə ödədiyi məcburi dövlət sosial sığorta haqlarından avtomatlaşdırılmış qaydada əmək pensiyasının təyinatı aparılır və təyin olunan pensiyanın məbləği ilə öz plastik bankomat kartını ala biləcəyi bankın filialının ünvanı ona bildirilir. Eyni zamanda vətəndaşın ünvanına bununla bağlı xüsusi yazılı rəsmi bildiriş də göndərilir. Hal-hazırda ilkin mərhələdə avtomatlaşdırılmış pensiya təyinatı yaşa görə əmək-pensiya hüququ yaranmış şəxslərə tətbiq edilir. Bu xidmət gələcəkdə əlilliyə və ailə başçısını itirməyə görə əmək pensiyası hüququ yaranan şəxslərə də şamil olunacaqdır.

Məlumatda qeyd edilib ki, fondun internet saytında ***(www.dsmf.nakhchivan.az)*** bir sıra elektron xidmətlər fəaliyyət göstərir. Bunlardan biri də pensiya kalkulyatorudur. Bu elektron xidmət vasitəsilə sosial sığortaya cəlb edilmiş şəxslər öz pensiya məbləğlərini hesablaya bilərlər.

Xatırladaq ki, 9 fevral 2015-ci il tarixdə Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikasında 2014-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə muxtar respublika rəhbəri tərəfindən Dövlət Sosial Müdafiə Fonduna elektron xidmətlərin tətbiqi, o cümlədən məcburi dövlət sosial sığorta haqlarının "onlayn ödəmə" rejimində həyata keçirilməsi və avtomatlaşdırılmış pensiya təyinatı ilə bağlı maarifləndirmə işlərinin gücləndirilməsi tapşırılıb.

**Xəbərlər şöbəsi**

# Naxçıvanın qədim tarixi abidələri, füsunkar təbiəti, müasir inkişafı ilə tanışlıq tur-aksiya iştirakçılarının dünyagörüşünün formalaşmasında əhəmiyyətli rol oynayacaq



“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyasının iştirakçıları martın 20-də Naxçıvan Muxtar Respublikasının Kəngərli rayonuna səfər ediblər.

Rayon ilə tanışlıq Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə başlayıb.

Burada məktəblilərə məlumat verilib ki, Kəngərli rayonu 2004-cü ildə yaradılıb. Rayonun ərazisindəki çoxsaylı arxeoloji abidələrdə aparılan qazıntılar zamanı qədim insanların həyat tərzini əks etdirən maddi-mədəniyyət nümunələri aşkar edilib. Son Tunc və İlk Dəmir dövrlərinə aid Qalacıq yaşayış yeri, 1-ci Qarabağlar, 2-ci Qarabağlar, Govurqala, Çalxanqala, Şahtaxtı kəndinin yaxınlığındakı qədim şəhər yeri, Şahtaxtı Govur qalası və nekropolları, Yurdçu qədim yaşayış yeri, buradakı kurqanlar və sərdabələr bu ərazinin qədim tarixə malik olduğunu sübut edir. Yurdçu kəndi yaxınlığında müxtəlif dövrlərə aid mis və gümüş dəfinəsinin aşkar edilməsi vaxtilə bölgənin qədim dövlət idarəçiliyi mərkəzlərindən biri olduğunu söyləməyə əsas verir.

Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyində bölgənin qədim tarixini və mədəniyyətini əks etdirən 2792 eksponat var. Hazırda bunlardan 758-i nümayiş etdirilir. Muzey 2007-ci ildən fəaliyyət göstərir.

Məktəblilər muzeydəki eksponatlara maraqla baxıblar.

Şagirdlər Kəngərli rayonundakı orta əsrlərə aid tarixi-memarlıq abidəsi olan Qarabağlar türbəsi ilə də tanış olublar. Memarlıq kompleksinə daxil olan qoşa minarənin XII əsrin sonu, XIII əsrin əvvəllərində tikildiyi ehtimal edilir. Minarələri bir-birinə bağlayan baştağ isə XIV əsrə aiddir. Onun üzərindəki kitabədə ərəb dilində bu sözlər yazılıb: “Allahın bu nişanəsi türkman Quti xatındır”. Söhbət Elxani hökmdarı Hülakü xanın arvadı Quti xatından gedir. Məktəblilər tarixi abidəni heyranlıqla seyr ediblər.

Qarabağlar kənd 1 nömrəli tam orta məktəbi ilə tanışlıq da şagirdlərin marağına səbəb oldu. Dördmərtəbəli bu təhsil ocağı 648 şagird yerlikdir. Məktəbdə 5-i elektron lövhəli olmaqla, 36 sinif otağı, kimya-biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 2 şahmat, 2 kompüter, 2 müəllimlər otağı, kitabxana, bufet, idman zalı və açıq idman qurğuları vardır. Gələn il 100 yaşını qeyd edəcək Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin kitabxanası zəngin fonda malikdir. Burada 8 mindən çox dərslik və bədii ədəbiyyat mövcuddur.

Məktəblə tanışlıq şagirdlərdə xoş təəssürat yaradıb.

* * *



Naxçıvan şəhərindəki Gənclər Mərkəzində “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiya çərçivəsində muxtar respublikada səfərdə olan məktəblilərlə görüş keçirilib.

Görüşdə çıxış edən Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Piri Nağıyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri adından şagirdləri salamlayıb.

Piri Nağıyev bildirib ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən həyata keçirilən “Ölkəmizi tanıyaq” tur-aksiyası böyüməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, onların dünyagörüşünün formalaşması baxımından böyük əhəmiyyətə malikdir. Azərbaycanın 20-dək rayonundan olan məktəblilərin muxtar respublikaya səfəri onların bu qədim diyarın tarixi, mədəniyyəti, sosial-iqtisadi inkişafı ilə yaxından tanış olmalarına geniş imkan yaratdı.

Qeyd edilib ki, tur-aksiya çərçivəsində Naxçıvan Muxtar Respublikasından da ölkəmizin digər bölgələrinə 160-dək məktəbli səfər edib.

Qədim diyarda təhsil sahəsinə göstərilən diqqət və qayğıdan bəhs edən nazir deyib ki, hazırda muxtar respublikada 215 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Məktəblərin maddi-texniki bazasının gücləndirilməsinə, tədris prosesinin müasirləşdirilməsinə xüsusi diqqət yetirilir. Təhsil sisteminin informasiya texnologiyaları ilə təminatı istiqamətində ardıcıl tədbirlər görülür. Muxtar respublikanın ümumtəhsil məktəblərində 3700 kompüter dəsti və 600 elektron lövhə quraşdırılıb. Təhsil müəssisələrindəki kompüterlərin hamısının internetə çıxışı təmin edilib, yeni istifadəyə verilən bütün məktəblərdə idman zalları, şahmatın tədrisi üçün nümunəvi şərait yaradılıb.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov bildirib ki, bu gün muxtar respublikada bədən tərbiyəsi və idmanın kütləviliyinə nail olunması, müasir idman infrastrukturunun yaradılması, gənclərin idmana marağının artırılması diqqət mərkəzində saxlanılır. Son 20 ildə muxtar respublikada 2 olimpiya-idman kompleksi, 2 üzgüçülük mərkəzi, 1 şahmat mərkəzi, 6 uşaq-gənclər şahmat məktəbi, 9 uşaq-gənclər idman məktəbi, Stend və Sportinq Atıcılıq Mərkəzi, 1 peyntbol meydançası, istifadəyə verilən tam orta məktəblərdə müasir idman zalları yaradılıb.

Diqqətə çatdırılıb ki, muxtar respublikada gənc idmançıların ayrı-ayrı idman növləri üzrə respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilib. Onlar ötən il dünya çempionatlarında 2, Avropa çempionatında 3, beynəlxalq turnirlərdə 16, Azərbaycan birinciliklərində isə 56 medal qazanıblar. Sevindirici haldır ki, 2 naxçıvanlı idmançı ilk dəfə keçiriləcək “Bakı – 2015” Avropa Oyunlarında iştirak etmək hüququ qazanıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev Gənclər Mərkəzi barədə məlumat verərək deyib ki, mərkəz ötən il istifadəyə verilib. Dördmərtəbəli binada elektron lövhəli 3 linqafon sinfi, kompüter otağı, elektron kitabxana, intellektual və stolüstü oyun zalları, interaktiv tir və kafe vardır. Mərkəzdə informasiya texnologiyalarının ən son nailiyyətləri tətbiq edilib, 104 kompüter dəsti quraşdırılıb, mərkəzi server sistemi və daxili şəbəkə yaradılıb, kompüterlərin hər birinin internetə çıxışı təmin edilib. Gənclər burada istənilən xarici dil üzrə həm nəzəri biliklərə, həm də praktik olaraq düzgün tələffüz vərdişlərinə yiyələnirlər.

Tədbirin sonunda tur-aksiya iştirakçılarına hədiyyələr təqdim edilib.

Martın 20-də “Ölkəmizi tanıyaq” tur-aksiyasının iştirakçıları Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola salınıblar.

* * *



“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın ikinci mərhələsində Azərbaycanın müxtəlif bölgələrindən 160 şagird martın 21-də Naxçıvan Muxtar Respublikasına gəlib.

Şagirdlər əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət ediblər.

Sonra şagirdlər Heydər Əliyev Muzeyinə gələrək buradakı eksponatlarla tanış olublar.

Məlumat verilib ki, muzeyin fondunda ulu öndərin həyat və fəaliyyətini əks etdirən 4500-dən çox eksponat toplanıb. Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1999-cu il fevralın 18-də imzaladığı Sərəncam əsasında yaradılıb və 1999-cu il mayın 10-da fəaliyyətə başlayıb.

Naxçıvan Dövlət Xalça Muzeyində isə şagirdlərə bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il fevralın 7-də imzaladığı Sərəncam xalçaçılıq sənətinin qorunmasına və inkişafına hərtərəfli şərait yaradıb. Həmçinin muxtar respublikada xalçaçılıq sənətinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər bu sahə üzrə yeni elmi araşdırmaların aparılmasına stimul verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 1998-ci ildə fəaliyyətə başlayan Dövlət Xalça Muzeyi 2010-cu ildə yeni bina ilə təmin olunub. 2013-cü ildə isə muzeyin ekspozisiyası yenidən qurulub. Hazırda muzeydə 3246 eksponat var. Burada Naxçıvan xalçaçılıq sənətinin öyrənilməsi və təbliği istiqamətində müəyyən tədbirlər görülür.

Məktəblilər “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə də tanış olublar.

* * *

“Ölkəmizi tanıyaq” tur-aksiya iştirakçıları martın 22-də Naxçıvan şəhərindəki Heydər Əliyev adına Hərbi Liseylə tanış olublar.

Hərbi təhsil ocağının rəis müavini, polkovnik-leytenant Tahir Cəlilov lisey haqqında məlumat verərək bildirdi ki, xüsusi təyinatlı bu təhsil müəssisəsi Milli Ordumuzu peşəkar kadrlarla təmin etmək istiqamətində uğurla fəaliyyət göstərir. Hazırda burada 657 gənc hərbi təhsil alır. Ümumilikdə isə fəaliyyət göstərdiyi 2004-cü ildən bu günədək liseyi 2161 kursant bitirib.

Hərbi Liseyin rəisi, polkovnik Elman Orucov diqqətə çatdırdı ki, bu təhsil ocağında ölkəmizin bütün bölgələrindən gənclər təhsil alırlar. Kursantlar dərslərdə və təlimlərdə uğur qazandıqları kimi, muxtar respublikada keçirilən fənn olimpiadaları və idman yarışlarında da fərqlənirlər.



“Məzunlarımız respublikamızın müstəqilliyi, ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şücaət göstərərək yüksək dövlət mükafatlarına layiq görülüblər”, – deyən Elman Orucov onlardan 5 nəfərinin şəhidlik zirvəsinə ucaldığını qeyd etdi.

Martın 22-də tur-aksiya iştirakçıları “Əshabi-Kəhf Ziyarətgahı” Dini-Mədəni Abidə Kompleksini ziyarət ediblər, Ordubad rayonunun tarix-memarlıq və mədəniyyət abidələri ilə də tanış olublar.

Həmin gün axşam tur-aksiya iştirakçıları “Duzdağ” otelində Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin konsertini maraqla izləyiblər.

* * *

Martın 23-də “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyasının iştirakçıları Şahbuz rayonuna gediblər. Şagirdlər əvvəlcə Şahbuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi ilə tanış olublar.



Şagirdlər Şahbuz şəhər 2 nömrəli tam orta məktəblə də tanış olublar. Burada məktəblilərin diqqətinə çatdırıldı ki, məktəb 216 şagird yerlikdir. Şahbuz şəhər 2 nömrəli tam orta məktəb 2013-2014-cü tədris ilində keçirilmiş müsabiqədə “Ən yaxşı ümumtəhsil məktəbi” adına layiq görülüb. 1930-cu ildə ibtidai məktəb kimi yaradılan təhsil ocağı sonralar 8 illik, daha sonra isə tam orta məktəb statusuna yiyələnib. Müasir standartlara cavab verən, arxitekturası ilə diqqəti cəlb edən üçmərtəbəli yeni tədris binası 2014-cü ilin payızında şagirdlərin ixtiyarına verilib.

Sonra tur-aksiya iştirakçıları Ağbulaq İstirahət Mərkəzində oldular.

“Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyasının iştirakçıları Şahbuz rayonundakı Batabat Astrofizika Rəsədxanasında da oldular.

Şagirdlər Batabat Astrofizika Rəsədxanasında səma cisimlərinin dinamikası və fizikasının öyrənilməsi istiqamətində aparılan araşdırmalar barədə məlumatları maraqla dinlədilər.

Şahbuz Dövlət Təbiət Qoruğu ilə tanışlıq isə buradakı muzeydən başladı. Muzeydə qoruq ərazisindəki flora və faunaya aid eksponatlar nümayiş etdirilir.

Məktəblilər Batabat yaylağının füsunkar gözəlliyini maraqla seyr etdilər, Naxçıvanın ecazkar təbiətinə heyran qaldıqlarını bildirdilər.



Həmin gün “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinə gələn “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiya iştirakçıları kompleksə böyük maraq göstərdilər.

Naxçıvanın zəngin, qədim tarixi ilə bağlı 48 mindən çox eksponatın qorunub saxlandığı Naxçıvan Dövlət Tarix Muzeyi də məktəblilərdə dərin təəssürat yaratdı.

Tur-aksiya iştirakçıları Naxçıvan şəhərindəki Hüseyn Cavid məqbərəsini ziyarət etdikdən sonra Dövlət Bayrağı Meydanı və Muzeyi ilə də tanış oldular.

Sonra məktəblilər Duzdağ Fizioterapiya Mərkəzinə gəldilər. Burada məktəblilərə Duzdağ şaxtalarının müalicəvi əhəmiyyəti barədə ətraflı məlumat verildi.

Martın 23-də axşam tur-aksiya iştirakçıları “Duzdağ” otelində Naxçıvan Musiqi Kolleci tələbələrinin ifasında konsertə baxdılar.

**Rauf ƏLİYEV**

*Şifahi söz xəzinəsinin toplanması və araşdırılması tariximizə, dilimizə, etnoqrafiyamıza ildən-ilə yeni töhfələr verir. Şifahi sözün, ağız ədəbiyyatının xalqın özündən toplanaraq özünə qaytarılması folklorşünaslıq elminin mühüm prinsiplərindən biri olmaqla milli-mənəvi dəyərlərimizin önə çəkilməsi baxımından əhəmiyyətlidir. Yeni əldə edilən materiallar bəzi toponimlərin mənşəyini, milli-mənəvi dəyərlərimizi müxtəlif aspektdən işıqlandırmağa imkan verir.*

# Folklorda yaşayan dəyərlərimiz

Şifahi xalq ədəbiyyatında əks olunan milli-mənəvi dəyərlərin tədqiqi orijinal nümunələrin toplanmasından çox asılıdır. Orijinal nümunələr nəzəri araşdırmalar üçün də olduqca əhəmiyyətli və vacibdir. İstər Şahbuz rayonundan toplanan folklor materiallarında, istərsə də hazırda üzərində işlədiyimiz Ordubad və Culfa rayonlarına aid materiallarda adların eyniliyi, sözlər arasındakı səs dəyişimi ilə müşahidə olunan fərqlər, yaxud eyniliklər təkcə Naxçıvan regionuna aid olmayıb, geniş bir areal üçün xarakterikdir. Elə buna görə də biz apardığımız araşdırmalar zamanı folklorun birtərəfli qaydada deyil, kompleks şəkildə toplanmasına üstünlük veririk. Bölgələrin təbii-coğrafi şəraiti nəzərə alınmaqla folklorun bütün janrlarında sorğu tərtib edilmişdir. Bundan əlavə, bütün kəndlərdən xalqımıza xas ənənələrin fərqli yönləri, əfsanələr, bayatılar, nağıllar, dialekt sözlər, adlar, milli-mənəvi dəyərlərimizlə bağlı əhəmiyyətli nə varsa, bir çox material toplanmışdır. Bəzən informatorun adi günlük yaşayış tərzində, müşahidəsində qədim ənənələrimizin elə təzahürünə rast gəlirik ki, bunu öncədən görmək və tərtib olunmuş sualla əldə etmək olmur. Oyunlarımızı, nəğmələrimizi, gülmələri yaşadan, yenilədirən məhz xalqımızın adət-ənənəsidir. "Çöpüdü", yaxud xalq ağzında işləndiyi kimi "Çördüçöp" oyunu toy şənliklərində oynanılması ilə yeni məzmun qazanır və yaşayır. Biçənək kəndindən qeydə aldığımız "Bostan-bostan" oyunu və bu oyunun şahidi olmuş Badamlı kəndindən olan Rüstəm müəllim oyunçu kimi iştirak edənlərin xüsusi geyimdə olduqlarını qeyd edir. Bu və ya digər araşdırmalar son dövrlərə qədər milli kişi geyimlərindən xalq oyunlarında istifadə olunduğunu və onların sıradan çıxmadığını göstərir.

Toplanan folklor materialları digər elm sahələri üçün də mənbə rolunu oynaya bilər. Bəzi hallarda adamlar mənasını, mənşəyini bilmədiyi sözlərin fars-ərəb mənşəli olduğunu iddia edirlər. Xalq arasında işlənən bir çox sözlər ifadə etdiyi məna baxımından xüsusi əhəmiyyət kəsb edir. Məsələn, Azərbaycan türkoloqları xalq arasında işlənən "vəng" sözünün türk dilinə mənsub olduğunu, qədim dövrlərdə bu sözün "bengü//benigü//benü// mengü//menü" formalarında olduğunu və "daşdan hazırlanmış yazılı abidə, daimi abidə, tükənməyən abidə" və sair mənalar ifadə etdiyini bildirmişlər. Sonradan "ü" saiti düşmüş, "e" saitini "ə" saiti, "b, m" samitlərini də "v" samiti əvəz etmişdir. Yaxud hazırda az rast gəlinən "aqa" sözü əmiyə, dayıya, əmioğlu, dayıoğluya ünvanlanan addır. Söz arxaikləşdiyi üçün danışıq dilində az işlənir. Əslində isə "aka" türklərin və monqolların ortaq işlətdikləri bir söz olub, monqol dövründə böyük qardaşa, yaxud soyun böyüyünə deyilmişdir. Məsələn: "Çingiz xan öldükdən sonra bütün xanədan və dövlətin akası Çağatay oldu". Qədim türk dilləri lüğətində də "aqa" sözünün böyük qardaşa deyildiyi göstərilmişdir.

Culfa rayonundan toplanan materiallar içərisində Lisə piri ilə bağlı söylənən inanc isə "lisə" sözünün mənşəyini açmaqda bizə kömək etdi. Çünki müqəddəs "Quran"ın "Nisə" surəsi əsas götürülərək "Nisə" sözünün təhrif olunaraq "lisə" adlandırıldığını deyənlər də vardır. Hansı sözün pirə verilən adın kökündə durduğunu aydınlaşdırmaq üçün sözün ilkin variantını araşdırdıq. Qədim türk sözləri lüğətində "lisp//lesp//lesp" "nəm, susuzluqdan yanğı", "liş" "göz yaşı, nəm", "leşp" "susuzluq" mənaları ilə verilir. Dilimizdəki s-ş əvəzlənməsini və Lisə pirinin inanc sistemindəki yeri "lisə" sözü üzərində durmağın lazım olduğunu göstərir. Xalq inancına görə, mövsüm başlanğıcında ağaclara düşən tırtılı Lisə pirinin möcüzəli suyu ilə məhv etmək olur. İnformatorların məlumatlarında deyilir ki, su götürüldükdən sonra danışmaq olmaz, yoxsa su kəsərdən düşər. Bəzən gedəndə də, gələndə də danışmaq olmazmış. Pirin yerləşdiyi yer dağ, qaya inancını, su üçün yerinə yetirilən ayin isə su kultunun əski izlərini daşımaqdadır.

Araşdırmalar göstərir ki, indiyədək gəlib çatan inanclar sistemində əski mədəniyyətimizin izləri əks olunmuş, bu izlər hətta dilimizdə olan arxaik sözlərdə qorunub saxlanmışdır. Hazırda dağ, ağac, su kultu ayinləri İslam dininə aid edilərək icra olunur. Belə ənənəçilik meyilləri nəinki bölgəmiz üçün xarakterik olmuş, hətta xristian türklərində də rast gəlinmişdir. Tədqiqatçı G.Yoloğlu xristianlıq və şamanizm haqqında yazdığı məqaləsində xristian türklərin kilsə bayramlarında əski inam və adətləri icra etdiklərini qeyd etmişdir. Belə nəticəyə gəlmək olar ki, şifahi xalq yaradıcılığı nümunələrində islamla, peyğəmbərlərlə bağlı söylənilənlər, islami inamlarla əski inancların bir-birinə qarışması tarixi prosesin təsiri ilə yaranmışdır.

İslam dini ilə bağlılıq əfsanələrdəki mifik obrazlarda da öz əksini tapmışdır. Nuhla bağlı əfsanələrdən birində gəmi hazırlamaq istəyən Nuha mifoloji Ucubılıx obrazının yerini nişan verən Əmirdir.

Əski bir əfsanəyə görə, ağbaba – kərkəs quşu ömrünün sonunda bir cüt yumurta yumurtlayır. Bunlardan birindən ağbabanın son balası, birindən də "baraq" adlanan bir it çıxır. M.H.Təhmasib "Əfsanəvi quşlar" məqaləsində M.Kaşqarlının kitabından götürülmüş bu əfsanədən bəhs edərkən bu sözün hazırda xalq arasında "parağ" şəklində işləndiyini bildirir. Ordubad rayonunun Parağa kəndinin adı bu baxımdan maraq doğurmaya bilməz. Yakut türklərinin nağıllarında çox sürətlə yeriyən mifoloji obrazın da adı Baraqçıdır.

Apardığımız araşdırmalar əsasında deyə bilərik ki, bölgə üçün xarakterik olan coğrafi mühit və şərait əfsanələrimizdə öz əksini tapmışdır. Daşların, qayaların insanabənzər silueti, insanların etik-əxlaqi düşüncəsi, mənəviyyatda formalaşan qaydalar gəlinqayalar, çobandaşlar, gəlindaşlar, əjdaha qayaları, qız-gəlin kimi əfsanələrin yaranmasına səbəb olmuşdur. Naxçıvanın bütün kəndlərində bu adda yerlərə, əfsanələrə, bayatılara rast gəlmək mümkündür. Əfsanələrdə əks olunan quş və ilan obrazlarına, qurd və keçi qarşılaşdırmalarına həmçinin Gəmiqaya rəsmlərində rast gəlirik. Deməli, hadisələrin fikri ifadəsi sözlərə, təsvirlərə, ayinlərə və sairlərə çevrilərək xalq yaddaşına və daşlara hopmuşdur. Mif strukturunda insanın kosmoloji varlıqlarla fikri əlaqəsi səsli danışıqda sükuta izlənsə də, əslində, qırılmaz əlaqələrin mövcudluğu aydın görünür. Nəsirvaz kənd sakinlərinin Gülümgülüm dağı ilə bağlı söylədikləri əfsanə bu baxımdan maraq doğurur. Bir neçə variantda qeydə aldığımız Gülümgülüm dağının əfsanəsində deyilir ki, bir gəlin hər gün "gəlim-gəlməyim" deyən dağın səsini eşidirmiş. Bir gün gəlin bu səsdən bezib "gəlirsən, gəl" deyir. Elə bu zaman dağ gurultu ilə gəlib kəndi tutur. Göründüyü kimi, dağların canlı təsviri mif xarakterlidir. Dağlara dua, alqış, bəddua, qarğış dastanlarımızda da geniş əks olunmuşdur.

*Beləliklə, folklorun həm epik, həm də lirik növ nümunələrinin istər ədəbi obrazlılıq baxımından, istərsə də tarixi aspektdən araşdırılması tariximizin və milli-mənəvi dəyərlərimizin mühüm cəhətlərini ortaya çıxara bilər.*

**Məhsəti İSMAYIL**
*filologiya üzrə fəlsəfə doktoru*

# Masallılı şagird: Naxçıvan sanki açıq hava altında bir muzeydir



Oxuduğum məktəbdə Azərbaycan dili və ədəbiyyat müəllimim bir gün mənə "Vətən haradan başlayır?" mövzusunda inşa yazmağı tapşırmışdı. "Tarix" fənninə böyük həvəsim olduğu üçün inşada yazdım ki, dəfələrlə Naxçıvan mühasirədə qalsa da, düşmənə təslim olmayıb. Çünki bu torpağın Azərbaycanı xilas etmiş ümummilli lider Heydər Əliyev kimi böyük övladı var. Onu da yazdım ki, "hər bir azərbaycanlının Vətəni ölkəmizin xilaskarı olan ulu öndər Heydər Əliyevin doğulub boya-başa çatdığı qədim Naxçıvandan başlayır".

Bu sözləri "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində Naxçıvana səfər edən Masallı şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Zeynəb Əzizi qəzetimizə müsahibəsində bildirib.

Zeynəb Əzizi fikirlərinə davam edərək deyib: "Müəllimim yazdığım inşanı çox bəyənmişdi. O, məndən "Naxçıvanda olmusanmı?" – deyə soruşmuşdu. O zaman mən müəllimimə "Yox, ancaq bir gün dahilər yurdunu görmək istəyərdim", – deyə cavab vermişdim. Prezidentimiz İlham Əliyevə minnətdaram. Dövlət başçısının tapşırığı ilə həyata keçirilən "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində, nəhayət ki, Naxçıvanı görə bildim.

Buranın gözəlliyinə, təbiətinə heyran qaldım. Naxçıvan şəhəri çox gözəldir. Binalar göz oxşayır. Hər tərəfdə səliqə-sahman gördüm. Buradakı tarixi yerlərə də getdik. Naxçıvan sanki açıq hava altında bir muzeydir".

# Naxçıvanın gözəlliyi Cəlilabad məktəblisini heyran edib



Müəllimlərimiz həmişə deyir ki, müstəqil Azərbaycanın banisi ulu öndər Heydər Əliyevin xarakterində doğulduğu, boya-başa çatdığı torpağın xüsusiyyətləri cəmləşmişdi. Məhz buna görə də mən Naxçıvanı görməyə çox can atırdım. Axır ki bu arzuma çatdım.

Bu sözləri "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində Naxçıvana səfər edən Cəlilabad şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Mülazim Həşimzadə qəzetimizə müsahibəsində bildirdi.

Mülazim Həşimzadə dedi ki, biz məktəblilər bu diyarın görməli yerlərini gəzdik, tarixi abidələri ilə tanış olduq, əsrarəngiz mənzərələrini seyr etdik. Hər yer çox gözəldir. Ulu öndərimiz Heydər Əliyevin doğulub boya-başa çatdığı Naxçıvanın gözəlliyi məni heyran etdi.

"Prezidentimizə minnətdarıq. Bu tur-aksiyalar bizə Vətənimizin gözəl guşələrini öz gözlərimizlə görmək imkanı qazandırır", – deyən Mülazim Həşimzadə bildirdi ki, Naxçıvanda həm də çoxlu dostlar tapıb.

# Gəncə məktəblisi: tur-aksiya qədim Naxçıvanı yaxından tanımağımıza şərait yaratdı



Naxçıvanın tarixi, gəzməli-görməli yerləri, maddi-mədəniyyət nümunələri haqda müəyyən məlumatım olsa da, düzünü deyim ki, ərazi baxımından Azərbaycandan ayrı düşən bu diyar haqda tam təsəvvürüm yox idi. Təşkil edilən ekskursiyalar ölkəmizin qədim diyarını yaxından tanımağımıza şərait yaratdı.

Bu sözləri isə "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində Naxçıvana səfər edən Gəncə şəhər 24 nömrəli tam orta məktəbin 11-ci sinif şagirdi Nicat Vəliyev dedi.

Nicat Vəliyev bildirdi ki, Naxçıvan şəhərinin, buradakı tarixi abidələrin və müasir binaların gözəlliyi, insanların qonaqpərvərliyi və istiqanlılığı onda xoş duyğular oyadıb: "Xan sarayı, Möminə xatın türbəsi, Əshabi-Kəhf ziyarətgahı, Ordubad şəhəri, Duzdağ Fizioterapiya Mərkəzi və digər məkanları gəzdik. Onların tarixi ilə tanış olduq. Naxçıvandan çox böyük təəssüratlarla ayrılırıq".

**Xəbərlər şöbəsi**

# Beynəlxalq Vərəmlə Mübarizə Gününə həsr olunmuş tədbirlər keçirilib

Hər il martın 24-də dünya ictimaiyyəti Beynəlxalq Vərəmlə Mübarizə Gününü qeyd edir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə 1993-cü ildən başlayaraq keçirilən Beynəlxalq Vərəmlə Mübarizə Gününün məqsədi qlobal vərəm epidemiyası haqqında məlumatlılığı artırmaq və bu xəstəliyin aradan qaldırılması istiqamətində səyləri gücləndirməkdir.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, mart ayında Beynəlxalq Vərəmlə Mübarizə Gününə həsr edilmiş tədbirlər keçirilib. Martın 19-da Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanseri Naxçıvan Tibb Kolleci ilə birgə elmi-praktik seminar keçirib.

Kollecin direktoru İlhamə Mustafayeva tədbiri giriş sözü ilə açaraq mövzunun aktuallığı barədə danışıb.

Dispanserin baş həkimi İlqar Rzayev "Uşaq və yeniyetmələrdə vərəm intoksikasiyası", təşkilati-metodik kabinənin müdiri Məmmədəli Ələkbərov "Vərəmin aşkarlanma strategiyası", profilaktik kabinə müdiri Əbülfəz Məmmədov "Vərəm xəstəliyinin profilaktikası" mövzularında çıxış ediblər.

Seminarda bildirilib ki, belə bir günün qeyd edilməsi üçün martın 24-ü təsadüfən seçilməyib. 1882-ci ildə məhz həmin gün alman mikrobioloqu Robert Kox vərəmi törədən mikrobları kəşf etdiyini elan edib. Statistikaya görə, vərəm hər il 1,6 milyon insanın həyatına son qoyur. Təəssüf ki, vərəm gecikmiş mərhələdə qarşısı alına bilməyən xəstəlikdir. Lakin bu mübarizəni bir an belə dayandırmadan müəyyən sabitliyə nail olmaq mümkündür. Bunun üçün əhalinin vərəm xəstəliyi ilə bağlı məlumatlılıq səviyyəsini artırmaq, insanlar arasında maarifləndirmə işi aparmaq vacibdir.

Sonra dinləyiciləri maraqlandıran suallar cavablandırılıb və onlara vərəmin profilaktikası barədə bukletlər paylanılıb.

Dispanserin xətti ilə Şərur Rayon Mərkəzi Xəstəxanasında da Beynəlxalq Vərəmlə Mübarizə Gününə həsr olunmuş elmi-praktik seminar keçirilib. Digər mövzularla yanaşı, həkim-bakterioloq Səbuhi Məmmədovun "Vərəmin rezistent (davamlı) formaları və belə xəstələrin dispanser müayinə və müalicə metodları" mövzusunda məruzəsi dinlənilib.

Dispanserin həkim və orta tibb işçilərindən ibarət briqadası "DOTS+" xəstələrinin Şərur rayonunda monitorinqini keçirmək üçün həftə ərzində Dəmirçi, Cəlilkənd və Qarahəsənli kəndlərində olublar. Həmin kəndlərdə "DOTS+" məntəqələri yaradılıb, xəstələrin iki aylıq dərmanları ərazi tibb işçilərinə verilib və onlar təlimatlandırılıblar.

Dispanserin xətti ilə Kəngərli rayonunun Qarabağlar kəndində "Uşaqlar arasında vərəm xəstəliyinin profilaktikası" barədə seminar keçirilib. Seminarda Qarabağlar kənd həkim ambulatoriyasının tibb işçiləri və Qarabağlar kəndindəki məktəblərin müəllimləri iştirak ediblər. Seminar iştirakçıları uşaqlarda vərəm xəstəliyinin diaqnostikası və müalicəsi üzrə yeni protokolla tanış olublar. Tədbir çərçivəsində kənddə olan xəstələrin monitorinqi keçirilib.

Dispanserin həkim briqadası Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbdə də olub, 35 nəfər yuxarı sinif şagirdini səyyar-flüoroqrafik müayinədən keçirib. Xəstə aşkar edilməyib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Naxçıvan şəhərinin Bulqan kənd sakini Abdinov Cəfərqulu Əli oğlunun adına verilmiş JN-1007A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
*E-mail: serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Səbuhi Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 248